**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

060201-Ədəbiyyatşünaslıq ("Türk xalqları ədəbiyyatı")
Kod: İF-M5668

# XX ƏSR QIRĞIZ NƏSRİ
**fənninin**

# P R O Q R A M I

## Magistr hazırlığı üçün

**BAKI -2016**

**Tərtib edən:** **Səbinə Oqtay qızı Ağayeva**
*filologiya üzrə fəlsəfə doktoru*
*Bakı Dövlət Universiteti*

**Redaktor:** **Ramiz Əskərov**
*filologiya üzrə elmlər doktoru*
*Bakı Dövlət Universiteti*

**Rəyçilər:** **Firuzə Ağayeva**
*filologiya üzrə elmlər doktoru*
*Bakı Dövlət Universiteti*

**Nizami Məmmədov-Tağısoy**
*filologiya üzrə elmlər doktoru,professor*
*Bakı Slavyan Universiteti*
*Azərbaycan ədəbiyyatı kafedrası*

# İzahat vərəqi

Azərbaycanda olduğu kimi, Orta Asiya regionuna daxil olan Qırğızıstan respublikasında da müstəqillik əldə edildikdən sonra, xalqın əhval-ruhiyyəsində, şüurunda yeni bir dirçəliş əmələ gəldi. Qırğız xalqı iqtisadi, siyasi və mədəni sahədə böyük nailiyyətlər və uğurlar qazandı. Bunların nəticəsi olaraq ölkələr arasında ədəbi əlaqələr çox geniş areallarda inkişaf etməyə başladı. Bu inkişaf nəsr sahəsində də özünü gostərdi. Qədim tarixə malik olan qırğız ədəbiyyatı öz inkişafında müxtəlif mərhələlərdən keçmişdir. XX əsr qırğız nəsri türk xalqları ədəbiyyatının tərkib hissəsidir.

Bakı Dövlət Universitetində türk xalqlarının ədəbiyyatı uzun illərdir ki, tədris olunur. "XX əsr qırğız nəsri" fənni magistr təhsili alan tələbələr üçün nəzərdə tutulmuşdur. Bu fənnin tədrisinə 30 saat mühazirə, 30 saat seminar ayrılmışdır. XX əsrin əvvəllərində formalaşan yazılı qırğız ədəbiyyatında nəsr xüsusi yer tutur. Qırğız nəsrinin görkəmli nümayəndələri - K.Bayalinov, A.Tokombayev, M.Elebayev, T.Sıdıqbayev, Ç.Aytmatov və b. yaradıcılığını, onların qırğız ədəbiyyatındakı rolunu, sənətkarlıq xüsusiyyətlərini öyrənmək böyük əhəmiyyətə malikdir.

**Fənnin tədrisində məqsəd:** "Türk xalqları ədəbiyyatı" ixtisası üzrə magistr təhsil pilləsində oxuyan tələbələr üçün nəzərdə tutulmuş "XX əsr qırğız nəsri" fənninin tədrisində qırğız ədəbiyyatının qədim dövrünə ekskurs etdikdən sonra, türk dastan janrının ən böyük eposu olan "Manas"a xüsusi yer ayırdıqdan sonra qırğız

ədiblərinin ən xarakterik əsərlərini, onların ideya-məzmununu, mövzu və problematika məsələlərini, öyrənmək qərar alınmışdır. Magistrlər "XX əsr qırğız nəsri" fənnini öyrənməklə **bilməlidir:**

a) Qırğız yazılı ədəbiyyatının yaranma tarixini;
b) Ədəbi inkişafın formalaşması və tanınmış nümayəndələrin yaradıcılığına bələd olmaq;
c) Bu dövr qırğız ədəbiyyatında yetişən sənətkarların xarakterik əsərləri və onların təhlili;
d) Qırğız nəsrinin yeni (müasir) inkişaf mərhələsində aparıcı simaların ədəbi fəaliyyəti və başqa xalqlarla ədəbi əlaqələr prosesini.

Magistrlər müasir dünyada xalqlar arasında ədəbi əlaqələrin öyrənilməsini və təbliğ edilməsini **bacarmalıdır.**

Magistrlikdə ideya, məzmun axtarışlarına, üsul, vasitə və metodik biliklərə **yiyələnməlidir.**

**Fənnin tədris planındakı yeri:**

"XX əsr qırğız nəsri" fənni 060201-Ədəbiyyatşünaslıq ("Türk xalqları ədəbiyyatı") ixtisaslaşması üzrə tədris olunur. Magistratura üzrə tədris planında seçmə fənn (İF-M5668) olaraq yer alır.

**Fənnin tədris üsulları:** mühazirə, seminar, fərdi işlər, kollokvium

Fənn proqramı tədris planında nəzərdə tutulan saatlara uyğun olaraq tərtib edilmişdir.

## Saatların mövzular üzrə paylanması:

| № | Mövzular | Cəmi | Mühazirə | Seminar |
|---|---|---|---|---|
| 1 | Qırğız şifahi xalq ədəbiyyatı | 4 | 2 | 2 |
| 2 | “Manas” dastanı | 4 | 2 | 2 |
| 3 | Qırğız akın poeziyası | 4 | 2 | 2 |
| 4 | Qırğız yazılı ədəbiyyatının yaranması | 4 | 2 | 2 |
| 5 | XX əsrin I yarısında qırğız nəsri | 4 | 2 | 2 |
| 6 | Böyük Vətən müharibəsi illərində qırğız nəsri | 4 | 2 | 2 |
| 7 | Kasımali Bayalinovun yaradıcılığı | 4 | 2 | 2 |
| 8 | Tugelbay Sadıkbayevin həyat və yaradıcılığı | 4 | 2 | 2 |
| 9 | XX əsrin II yarısında qırğız nəsri | 4 | 2 | 2 |
| 10 | Ç.Aytmatovun povestləri | 4 | 2 | 2 |
| 11 | Ç.Aytmatovun roman yaradıcılığı | 4 | 2 | 2 |
| 12 | Ç.Aytmatovun nəsrində mifologiya | 4 | 2 | 2 |
| 13 | Ç.Aytmatovun əsərləri Azərbaycan dilində | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| 14 | Türk nəsri və Ç.Aytmatov | 4 | 2 | 2 |
| 15 | Müasir mərhələdə qırğız nəsrinə baxış | 4 | 2 | 2 |
| | **Yekun** | **60** | **30** | **30** |

# Mövzular və onların məzmunu

**1.Qırğız şifahi xalq ədəbiyyatı.** Qırğız məişət və mərasim nəğmələri. Kökü qədim mifik görüşlərə bağlı olan çoban mahnıları: “Bekbekey”, “Sansakey”, “Şırıldan”. “Koşok”, “koştosu”, “arman”, “arnoo” nəğmələri haqqında məlumat. Qırğız folklorunda nəsihətamiz, didaktik parçalar –“sanat” və “nasiyat”.

Qırğız dastanları. Xalqın mübarizəsini, qəhrəmanlığını əks etdirən eposlar: “Kedeyxan”, “Kurmanbek”, “Ertaştuk”, “Kodjocas”. Dastan qəhrəmanı vətənin qoruyucusu, xalqın mənafeyinin müdafiəçisi kimi.

Yazılı ədəbiyyatın yaranmasında şifahi xalq ədəbiyyatı mühüm mənbə kimi (18), (20), (23).

**2. “Manas” dastanı.** Dastanın formalaşması, tədqiqi və təhlili. Üç nəslin fonunda (Manas, Semetey, Seytek) əks olunan qırğız həyat və məişəti. Dastanda qəhrəmanlıq motivi. Qırğız xalqının adət və ənənələri, köçəri həyat tərzi, qohum və yad qəbilələr arasında olan ziddiyyət və çəkişmələrin əksi. Dastanda yer alan mifoloji motivlər.

XIX əsr qazax maarifçisi və etnoqrafı Çokan Vəlixanovun dastan haqqında ilk elmi fikirləri. “Manas”ı “səhraların İliadası” adlandırması. “Manas” dastanının Azərbaycan dilinə tərcüməsi və tədqiqi (11),(21),(33).

**3. Qırğız akın poeziyası.** Akınlar xalqın arzuları və ideallarının tərənnümçüsü kimi. Akın poeziyasının rəngarəng janrları – “moktoo”, “kordoo”.

Akın poeziyasında aytış-aytıs (deyişmələrin) mühüm yer tutması. Xalqın azadlıq arzularını, qəbilə daxilindəki sinfi ziddiyyətləri əks etdirən görkəmli akınlar-

Toktoqul Satılqanov (1864-1939) və Toqolok Moldonun (1860-1942) həyat və yaradıcılığı. Akın poeziyasını yeni məzmunla zənginləşdirərək onu yazılı ədəbiyyata yaxınlaşdırmaları. Bayların, feodalların çirkin həyat tərzini, qırğız qadınının acı taleyini özündə əks etdirən əsərlər. "Beş qaban" əsəri (25),(26),(29),(35).

**4. Qırğız yazılı ədəbiyyatının yaranması.** Qırğız yazılı ədəbiyyatının ilk nümunələri. XX əsrin əvvəllərində feodal təbəqə tərəfindən ərəb əlifbası əsasında yazılı ədəbiyyat nümunələri yaratmaq cəhdi. Klıça Mamırkanovun "Zəlzələ" poeması (1911), Osmanlı Sadıkovun "Qırğız tarixi" (1913), "Şadman qırğızların tarixi" (1914) kitabları. Ədəbiyyata Oktyabr inqilabının təsiri.

Milli ədəbiyyatın təşəkkülü və inkişafı. 1924-cü ildə qırğız dilində ilk qəzet "Ərkin-too" (Azad dağlar), "Leninçicaş" (Gənc leninçi). 1926-cı ildə qırğız dövlət nəşriyyatının yaranması və bu dövr ədəbiyyat cərəyanlarının inkişafına təsiri.

Aalı Tokombayev, Mukay Elebayev, Kasımali Bayalinov və başqalarının qırğız nəsrinin inkişafındakı rolu (34), (39).

**5. XX əsrin I yarısında qırğız nəsri.** Gənc qırğız yazıçılarının əsərlərinin yaranması. 1920-30-cu illərdə rus ədəbiyyatı ilə birləşmə prosesi. Qırğız ədəbiyyatının rus dilinə və rus ədəbiyyatının qırğız dilinə tərcümə olunmasının özündə əksi.

Qırğız realist nəsrinin yaranması və ilk nümunələri. Hekayə janrının inkişafında "Çabuul" (Hücum) jurnalının böyük rolu. Ş.Kokonovun yaradıcılığı. "Əngəlsiz arzu", "Öz

sevgilisi ilə birləşə bilmədi", "Bizim günlərdə" əsərlərinin təhlili.

M.Elebayevin "Boranlı gündə", "Amansız illər", K.Malikovun "Üstü açılmış cinayət" A.Tokombayevin "Melodiyanın sirri" əsərlərinin üslubuna görə seçilməsi.

Qırğız nəsrində tarixi hadisələrə müraciət və onların əsərlərdə əksi. 1930-cu illərdə qırğız ədəbiyyatında roman janrının xüsusi yeri. M.Elebayevin "Uzun yol", T. Sadıkbayevin "Gen suu", K.Cantoşevin "Kambek" romanları haqqında məlumat (34), (39).

**6. Böyük Vətən müharibəsi illərində qırğız nəsri.** Böyük Vətən müharibəsi illərində nəsrdə əsas mövzular: vətənin müdafiəsi, vətənpərvərlik və qəhrəmanlıq, arxa cəbhədə insanların həyatı və fədakar əməyi.

Vətən uğrunda həlak olan yazıçılar –M.Elebayev, İ.Turusbekov, J.Aşunbayev və onların ədəbiyyatın formalaşmasında rolu.

A.Tokombayevin "Qırğızın şanlı oğulları" (1943) hekayələr silsiləsi və "Yanar ürək" povesti, N.Baytemirovun "Azamat" əsərlərində müharibə mövzusunun əksi. Müharibədən sonrakı dövrdə xalqın həyatının epik planda işıqlandırılması (39), (40).

**7. Kasımali Bayalinovun yaradıcılığı.** Nasirin həyatı və yaradıcılığı. İlk qələm təcrübələri. Qırğız hekayə janrının inkişafında yazıçının xüsusi rolu.

"Murat", "Uşaq hekayələri", "Qaranquş və ilan", "Yetimin ölümü", "Tülkü" hekayələrində qırğız qadın və qızlarının faciəli taleyinin təsviri. "Açar" povestinin təhlili. Gənc qızın daxili aləmi və taleyi.

K. Bayalinovun tərcüməçilik fəaliyyəti. A.Puşkin, M.Lermontov, M.Qorkinin əsərlərini qırğız dilinə tərcümə etməsi (30),(31),(32).

**8. Tugelbay Sadıkbayevin həyat və yaradıcılığı.** Realist qırğız ədəbiyyatında T. Sadıkbayovun rolu. 30-cu illərdə kollektivləşmə mövzusuna həsr olunan "Gen suu", "Temir" romanları. Müharibə dövrü və müharibədən sonra yaratdığı əsərlərin səciyyəvi cəhətləri. "Otlaqda" (1942), "Tərbiyə" (1943), "Bizim günlərin insanları" (1948) əsərləri. "Bizim günlərin insanları" romanına görə ədibin Dövlət mükafatına layiq görülməsi. Yazıçının yatradıcılığında müsbət qəhrəman problemi. "Dağlar arasında" romanının təhlili (41), (42),(43).

**9. XX əsrin II yarısında qırğız nəsri.** 50-60-cı illər üçün xarakterik olan irihəcmli romanlar, dilogiyalar, trilogiyalar.

N.Baytemirovun yaradıcılığı. "Cavan ürəklər" (1953) , "Sonuncu güllə" (19550 "Yıldızkan" əsərləri haqqında məlumat. Bu mərhələdə nəsrə yeni gələn yazıçılar: Ç.Aytmatov, K.Kaimov, A.Aytbayev və b.

Hekayə janrının inkişafı. Əsərlərdə qoyulan problemlərin aktuallığı. Qırğız nəsrində qadın taleyi problemi. Ç.Aytmatovun "Ana tarla" povestində Tolqonay surəti. Müharibənin dəhşətlərinə sinə gərən Tolqonay və onun mənəvi aləmi. Tolqonay və Aliman.

"Qırmızı yaylıqlı qovağım mənim" povestində Asel obrazının təhlili. Asel-Xədicə xətti.

"İlk müəllim" povestində Altınay Süleymanovanın həyat yolu (34),(38),(40),(44).

**10. Ç.Aytmatovun povestləri.** Ç.Aytmatovun həyatı. Ədəbi fəaliyyəti. Yazıçının povestlərində insan və təbiət, insan və

cəmiyyət problemi. “Cəmilə” (1958), “Qırmızı yaylıqlı qovağım mənim” (1962), “İlk müəllim” (1963), “Əlvida Gülsarı” (1967), “Ağ gəmi” (1970), “Dəniz kənarıyla qaçan alabaş” (1970), “Çingiz xanın ağ buludu” povestlərində obrazların rəngarəngliyi.

“Ana tarla”, “Üzbəüz” povestlərində Böyük Vətən müharibəsi mövzusunun əksi (12),(15), (17), (27).

**11. Ç.Aytmatovun roman yaradıcılığı.** Ç.Aytmatov roman ustası kimi. Yazıçının ilk romanı –“Gün var əsrə bərabər” romanının ideyası, məzmunu, obrazlar aləmi. Yedigey, Qazanqap, Abutalıb, Sabitcan, Zərifə surətləri.

“Qiyamət” romanı. Əsərin məzmunu və təhlili. Əsərdəki problemin bəşəri xarakteri. Romanda xristian mifologiyasına müraciətin səbəbləri. Qlobal problemlərin əksi.

Ç.Aytmatovun yaradıcılığının son dövründə yaratdığı əsərlər: “Kassandra damğası”, “Dağlar çökəndə” (“Əbədi gəlin”). Bu romanlarda ümumbəşər xarakterli problemlər: insanların klonlaşdırılması və terrorizmlə mübarizə. Əsərlərin ideyası, obrazlar aləmi və sənətkarlıq xüsusiyyətləri (14), (16), (28), (38).

**12. Ç.Aytmatovun nəsrində mifologiya.** “Ağ gəmi”, “Dəniz kənarıyla qaçan alabaş”, “Çingiz xanın ağ buludu” povestlərində mifologizm. Ana maral mifinin məzmunu və əsərdəki rolu.

Türk mifologiyası Aytmatovun romanlarının əsas mənbəyi kimi. “Gün var əsrə bərabər” romanında Manqurt əfsanəsi. Ana-Beyit qəbristanlığının miflə bağlılığı.

“Çingiz xanın ağ buludu” povestində “Sarıözək qətli” mifi və Abutalıb Kutubayevin həyat dramı.

“Əbədi gəlin” romanında mifə müraciət (19), (20), (23), (38).

**13. Ç.Aytmatovun əsərləri Azərbaycan dilində.** Qırğız – Azərbaycan ədəbi əlaqələri müasir mərhələdə.

Ç.Aytmatovun Azərbaycanda tədqiqi. Azərbaycan yazıçılarının yaradıcılığına Ç.Aytmatovun təsiri.

Ç.Aytmatov Azərbaycan ədəbiyyatşünaslığında (22), (24).

**14. Türk nəsri və Ç.Aytmatov.** Ç.Aytmatov yaradıcılığında xarakterik ədəbi nümunələrin dünya və türk ədəbiyyatında yayılması və başqa xalqların dillərinə tərcümə problemi. Azərbaycan ədəbiyyatı ilə bağlılıq məsələləri. Ç.Aytmatovun “Qiyamət” və Y.Səmədoğlunun “Qətl günü” əsərləri arasında tipoloji yaxınlıqlar, ideya və məzmun oxşarlıqları (23), (24).

**15. Müasir mərhələdə qırğız nəsrinə baxış.** Qırğız nəsrinin yeni mənzərəsi. Yeni mərhələdə mövzu və ideya istiqamətləri. Yazıçıların (T. İbraimov, S.Rayev) yeni ədəbi axtarışları. ədəbiyyatda novatorluq problemi. Nəsrdə mənəvi-əxlaqi problemlər və fəlsəfi mövzulara yer ayrılması. Bu dövr nəsrinin özünəməxsusluqları. Müasir qırğız ədəbiyyatının aparıcı simalarının türk ədəbiyyatında yeri və mövqeyi (34), (36).

## Sərbəst iş mövzuları:

**1.** Qırğız şifahi xalq ədəbiyyatı
**2.** Toktoqul Satılqanov və Toqolok Moldonun yaradıcılığı
**3.** Qırğız yazılı ədəbiyyatının yaranması
**4.** XX əsrin I yarısında qırğız nəsri. K.Bayalinovun “Açar” povestinin təhlili.
**5.** T. Sadıkbayevin “Zəmanəmizin adamları” romanının təhlili
**6.** Böyük Vətən müharibəsi illərində qırğız nəsri
**7.** Ç. Aytmatovun povestləri: “İlk müəllim”, “Əlvida, Gülsarı”, “Ağ gəmi”, “Dəniz kənarıyla qaçan alabaş”.
**8.** XX əsr qırğız nəsrində qadın taleyi.
**9.** Ç. Aytmatovun “Gün var əsrə bərabər” və “Qiyamət” romanları
**10.** Ç. Aytmatovun “Kassandra damğası” və “Əbədi gəlin” romanları

## ƏDƏBİYYAT:

### ƏSAS:

1. Cəfərov N. Qədim türk ədəbiyyatı. Bakı: AzAtaM, 2004, 322s.
2. Əmrahoğlu A. Türk xalqları ədəbiyyatı. Bakı: Elm və təhsil, 2009, 148s.
3. Xəlilov P. SSRİ xalqları ədəbiyyatı: 2 cilddə; II c. Bakı: Maarif, 1977, 409s.
4. Xəlilov P. Türk xalqları və şərqi slavyanların ədəbiyyatı. Bakı: Maarif, 1994, 432s.
5. Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı: Apoctoroff, 2014, 612s.
6. Türk xalqları ədəbiyyatı: 4 cilddə; IVc. Ən yeni dövr. /Tərtib edən: N.Cəfərov\. Bakı: Çaşıoğlu, 2007, 256s.

**Rus dilində**

7. История киргизской советской литературы. Москва: Советский писатель ,1970, 252 с.
8. Кадырбаева Р. Киргизская литература. - В кн. Краткая литературная энциклопедия. Т.3. Москва: Просвещение, 1966, 493с.
9. История литератур народов Средней Азии и Казахстана. Москва: Советский писатель, 1960, 315 с.
10. Литература народов СССР. Под ред. С.Баруздина. Москва: Знание, 1986, 400с.

### ƏLAVƏ:

11. Adil Cəmil. Manas eposu və türk dastançılıq ənənəsi. Bakı: Azərnəşr, 2002, 192s.
12. Aytmatov Ç. Köşək gözü. Bakı: Azərnəşr, 1965, 250s.
13. Aytmatov Ç. Əlvida Gülsarı. Bakı: Gənclik, 1969, 261s.
14. Aytmatov Ç. Qiyamət. Bakı: Yazıçı, 1991, 268s.
15. Aytmatov Ç. Çingiz xanın ağ buludu. Bakı: Azərnəşr, 1992, 178s.
16. Aytmatov Ç. Gün var əsrə bərabər. Bakı: Öndər, 2004, 309s.
17. Aytmatov Ç. Ağ gəmi. Bakı: Öndər, 2004, 88s.
18. Bahəddin Ögəl. B. Türk mifologiyası. I cild. Bakı: MBM, 2006, 596 s.
19. Bəydili C. Türk mifoloji sözlüyü. Bakı: Mütərcim, 2003, 143s.
20. Bəydili C (Məmmədov). Türk mifoloji obrazlar sistemi : struktur və funksiya. Bakı: Mütərcim, 2007, 272s.
21. "Manas" dastanı. Bakı: Azərnəşr, 2009, 252s.
22. Məmmədov A. Dünənimin sözləri. Bakı: Elm, 2006, 411s.
23. Məmmədov A. Türk mifologiyası və türk xalqları ədəbiyyatı /metodik vəsait\. Bakı: Nurlan, 2011, 37s.
24. Mən Manas oğluyam. /Ç.Aytmatov haqqında sənədlər, məqalələr, xatirələr, müsahibələr/. Bakı: Nurlan, 2009, 279s.

**Türk dilində**

25. Cumakunova G. Toktoqul. /Qırğız dilindən tərcümə edən: R.Esker/. Eskişehir: 2014, 320s.

**Rus dilində**

26. Акыны Киргизии в переводах. Бишкек: Адабият, 1991, 220с.
27. Айтматов Ч. Повести. Москва: Известия, 1962, 479с.
28. Айтматов Ч. Когда падают горы. Санкт-Петербург: Азбука-классика, 2008,300 с.
29. Баялинов К. Рассказы. Фрунзе: Ментен, 1961, 51с.
30. Баялинов К. Счастье. Повести и рассказы. Москва: Советский писатель, 1948, 312с.
31. Баялинов К. На берегах Иссык-Куля. Повести. Фрунзе: Киргизгосиздат, 1956, 310с.
32. Аманалиев Б. Общественно-политические и философские идеи Токтогула и Тоголока Молдо. Фрунзе: Киргизгосиздат, 1963, 228с.
33. Бегалиев С. О поэтике эпоса «Манас». Фрунзе: Киргизгосиздат,1968, 163с.
34. Богданов М. Токтогул Сатылганов. Критико-биографический очерк. Москва: Гослитиздат,1959, 111с.
35. Бобулов К. Развития реализма в киргизской прозе. Фрунзе: Киргизгосиздат,1968, 180с.
36. Мелетинский Е. Поэтика мифа. Москва: Наука, 1976, 185с.
37. Ибраимов Т. Старик и Ангел. Бишкек: Адабият , 2007, 207с.

38. Мирза-Ахмедова П. Национальная эпическая традиция и творчество Ч.Айтматова. Ташкент: Прогресс, 1980, 195с.
39. Очерки истории киргизской советской литературы. Фрунзе: Киргизгосиздат , 1961, 277с.
40. Страницы из взаимосвязей братских литератур. Ашхабад: Ылым, 1979, 129с.
41. Сыдыкбеков Т. Большая советская энциклопедия: в 30 т; т. XII. Москва: Советская энциклопедия, 1970, 435с.
42. Сыдыкбеков Т. Среди гор. Москва: Известия, 1965, 347с.
43. Сыдыкбеков Т. Люди наших дней. Москва: Советский писатель, 1975, 516с.
44. Шошин Б.А. Литература народов СССР. Москва: Советский писатель, 1977, 220с.